ədalət.- 2022.- 29 oktyabr.- S.6.

# Sükutla söhbətin yozumu

## İsmayıl Öməroğlunun bir şeirinin işığında

**Dünya yaxşılara, savab işin ətəyini əlindən buraxmayanlara söykənib. Bu günümüzə gəlib çıxıbdı. Buna görə də yaxşıları xatırlamaq, onların ruhunu şad etmək bizim də borcumuzdur. Təbii ki, bu sırada söz adamlarının, şair və yazıçıların adını çəkmək, yaradıcılığına üz tutmaq və bir də onlarla bağlı xatirələri çözmək oxucu üçün də, onların tanıyan üçün də müəyyən mənada bir borc olmalıdı - insanlıq borcu!**

Bu mənada mən tez-tez haqq dünyasında olan, tanrı dərgahında yaşayan qələm dostlarımı, ustad, söz adamlarını xatırlamaqla təkcə ruhlarını şad etmirəm, həm də onların yaradıcılığına öz gücüm, imkanım daxilində işıq salıram. İstəyirəm ki, oxucu həmin şairlərin şeirlərini təkrar oxusunlar və apardığım paraleldə onların özəl düşüncələrinin, poetik fikirlərinin şahidinə çevrilsinlər. Bu gün də həmin istəklə layihəmə uyğun olaraq ziyalı dünyamızın, Azərbaycanın aydınlarının sırasında yer alan İsmayıl Öməroğlundan söz açıram. Daha doğrusu, onun "Baxtıma düşən dünya" kitabından bir şeirini paralel müstəvidə, amma bir baxış altında şərh etməkdə qərarlıyam...

Burda xatırlatmaq istərdim ki, mərhum İsmayıl müəllimlə ən çox təmasım onun "Azərbaycan" nəşriyyatının 6-cı mərtəbəsində olan iş otağı ilə daha çox bağlıdı. Çünki o, sonuncu iş yerində, yəni "Azərbaycan" nəşriyyatındakı ofisində gah özü telefonla dəvət edər, gah da mən onun qapısını döyərdim. Bu, onun ömrünün son illərinə təsadüf etsə də, biz onunla iç dünyamızın çox məqamlarından danışmaq imkanı əldə etdik. Hətta o mənim yaradıcılığımla bağlı böyük bir məqalə də yazdı. Sonra son kitablarını mənə bağışladı. Mən də o kitablarla bağlı düşüncələrimi mətbuata çıxartdım. Və beləcə bizim isti təmasımız mənə imkan verdi ki, onu bir az da yaxından tanıyım. Tanıdım və gördüm ki, İsmayıl Ömərəoğlu bizim dəyərli aydınlarımızdan biri imiş!

Elə indi sizinlə bölüşəcəyim şeirində də onun özünəməxsusluğu kifayət qədər aydın bir şəkildə görünür. Adətən insan sükutdan gah fahimələnir, gah özünün tərkidünyalılığını, hətta kimsəsizliyini boynuna çəkir. Amma İsmayıl Ömərəoğlu öz böyük ürəyi ilə, öz böyük məntiqi ilə sükutu heykələ bənzədir. O, yazır ki:

***Üzümü divara tutub***
***səni düşündüm,***
***sükut içində.***
***Bu saçların, bu üzün.***
***Bu ala gözün -***
***Ulduz kimi yanar, yanar!***

Zənnimcə, bu, bir parça özü artıq oxucunu sükuta hazırlayır. Çünki biz xəyala dalanda, səssizliyə çəkiləndə bəzən gözlərimizi yumub özümüzü hər şeydən təcrid edirik. Amma İsmayıl Ömərəoğlu üzünü divara tutub onu düşünür. Onun üzünü, gözünü, saçlarını baxdığı divarda da, elə öz



içində də canlandırır. Bu, artıq mənə görə bir səhnədi, bir tamaşadan fraqmentdi. Ona görə də çəkir adamı - yəni oxucunu özünə. Bax, mən də öz dünyamda, öz sükutumda üzümü Sənə tutanda Allahın eşidəcəyi bir pıçıltı ilə deyirəm:

***Sən mənə***
***bir damla***
***ümid***
***bağışla -***
***yaşayım...***

Sizi deyə bilmərəm, mənim öz inamıma, öz ölçü arşınıma görə çox da böyük bir şey istəmirəm. Səndən diləyim, umacağım, sadəcə bir damla ümiddi. Ümid, savab xatirinə də, sevgi xatirinə də, insanlıq xatirinə də, lap elə kobud desəm, yola vermək xatirinə də vermək olar. Təki sənin verdiyin ümid kimisə , indiki məqamda isə məni yaşatsın. Çünki sənin verdiyin ümid mənim üçün bütün mənalarda Sevgidi, Məhəbbətdi . Elə üzü divara dayanmış və sükutun heykəlini yaradan İsmayıl Ömərəoğlu da mənimlə həmfikir olaraq yazır ki:

***Məhəbbət necə şirindir,***
***Məhəbbət olanda insan***
***Xəyalda da sevə bilər,***
***Xəyalda da insan canlanar.***

Əgər Azərbaycanın dəyərli bir Aydını, professoru, ədəbiyyatşünası, şairi, sükutun heykəlini yaradarkən birmənalı şəkildə vurğulayır ki, bu heykəlin mayası da, şirinliyi də sevgidi, məhəbbətdi, onda sən də mənimlə razılaşmalısan. Ən azından gerçəyi bilib, yaşayıb bəyan edən və bizdən öndə olan İsmayıl Ömərəoğlunun dediklərinə hörmət və sayqı ilə sən bunu qəbul etməlisən. Və deməli onda sən təkcə sükutu öz içində vərəqləyəndə görəcəksən ki, o sükut da sevgidi, məhəbbətdi, səninlə baş-başa qalıb səninlə pıçıldaşır. Necə ki, mənimlə bir aradadı. Və mən də öz şeirimin növbəti misrasını sənə xatırladıram:

***Ümidin***
***şehi kimi,***
***kirpikdən***
***qopan***
***gilə yağışla -***
***yaşayım...***

Əgər bir gilə yağış odu söndürüb kül edirsə, demək onun gücü də yetərincədi. Əksinə, əgər bir gilə yağış odu daha da alovlandırırsa, bu, artıq sevginin qüdrətidi, sevginin möcüzəsidi!.. O da haqdan gəlib. Ona görə də yaxanı kənara nə qədər çəkirsən çək, bu meydandan çıxa bilməyəcəksən.

Çünki sevginin dünyası böyük olduğu qədər də həm də kiçikdi. Çünki orda iki ürək bir olubdu. Və bu da BİR olanın yaratdığı birlikdi. Bunun bütün yozumlarda adı dilindən və dinindən asılı olmayaraq hər kəsə məlumdu. Necə ki, sükutun dilini, onun heykəlini qoyan, onun heykəlini ucaldan İsmayıl Ömərəoğlu bilir və bizə çatdırır.

Bax, elə bu məqamda da sevginin dili və dini Sənə də, mənə də aydındır, doğmadır. Bu doğmalığı İsmayıl Ömərəoğlu həm qələmi ilə söz şəklində, həm də yaratdığı tamaşanın dili ilə belə deyir, belə də göstərir:

***Bu sükutda sən,***
***Sənin saçların,***
***Sənin əllərin...***

Təqdim etdiyim bu lövhədə - yəni İsmayıl Ömərəoğlunun şeirində özünü görmək bəlkə də ən xoş anlardan, məqamlardan biridir. Çünki bu sevgi pakdı, gün işığı kimi dupduru. Mən də bu paklığın içərisində səni görür, səni təkrar düşünüb yazıram ki:

***Mənim,***
***adımı adıyla***
***bir ömrün dadıyla***
***həyatın -***
***hər qatıyla***
***və sevdiyim***
***qadınla***
***naxışla, yaşayım...***

Diləyim, istəyim təkcə var olmaq üçün deyil, həyatda qalmaq üçün deyil, həm də böyük sevginin yükünü çəkmək, onu özümlə ömrün sonuna qədər daşımaq istəyidi. Bu istəyin də təbii ki, xeyir duası səndən keçir. O ana qədər ki, sən özün də bunu istəyirsən. Bax, onda sükut da danışır, heykəl olmasına baxmayaraq o da sevginin hərarətindən, sevginin böyüklüyündən sanki dirilir, ətə-qana dolur - bizlərdən biri. Və bizlərdən biri olan sükutun heykəlini də İsmayıl Ömərəoğlu sevginin heykəlinə çevirir:

***Yox olub daş-divar,***
***Bu sükut -***
***məhəbbətim kimi -***
***Qara saçlı,***
***qara gözlü,***
***ağ üzlü***
***bu sükut - sevgilimin heykəli.***

Bax, bütün yozumlarımın içərisində mən tam əminliklə təkrar edirəm ki, mənim də istəyimin, yaşamımın reallaşması, gerçəkləşməsi məhz sənin bir gilə ümidindən asılıdır. Verəcəyin şirin bir zülmün yaşamından keçib gedir bu ömür. Özü də sevgi üçün, məhəbbət üçün çarpışan ömür:

***Mənə -***
***sən qapı açdın***
***Məcnundan qalan dinə!***
***Allahım,***
***dözüm***
***və bir də***
***şirin bir zülüm***
***ver mənə!***
***Ömür boyu Sənə -***
***alqışla, yaşayım!***

**Bəli, mən mərhum İsmayıl Ömərəoğlunun "Sükutun heykəli" şeirinin pıçıltılarını öz "İstəyirsənsə yaşayım..." şeirimin pıçıltıları ilə bir araya gətirib oxuculara təqdim etdim. Məqsədim bu təqdimatla həm İsmayıl müəllimin ruhunu şad etmək, həm də sükutun necə danışdığını və nədən danışdığını öz bildiyim kimi yozmaq idi. Düşünürəm ki, bu yozum alındı. Əgər alınmayıbsa, günah qalsın boynumda...**

**Əbülfət MƏDƏTOĞLU**